Sivilizasiya, Cild 13, № 5, 2024 (61)
Bakı Avrasiya Universiteti

**UOT 82**

# SABİRİN SATİRALARI VƏ XALQ GÜLÜŞÜ

**Yaqut ƏŞRƏFOVA***

Məqalə redaksiyaya daxil olmuşdur: 15 oktyabr 2024; çapa qəbul edilmişdir: 31 oktyabr 2024;online-daçap edilmişdir:11 dekabr 2024.

Received:15th of October, 2024; accepted: 31th of October, 2024; published online:11th of December, 2024.

**Açar sözlər:** *Azərbaycan, ədəbiyyat, Sabir, satira, gülüş*

## Giriş

Görkəmli Azərbaycan şairi Mirzə Ələkbər Sabirin (1862-1911) yaradıcılığında satira janrının xüsusi bir yeri vardır. Azərbaycan ədəbiyyatı tarixində satira ədəbiyyatından bəhs edəndə ilk növbədə Sabir xatırlanır. Azərbaycan satira ədəbiyyatının elə bir zirvə məqamını yaradıb ki, o məqam elə Sabirin özünə aiddir. Sabirin yaradıcılığı geniş olsa da satira onun yaradıcılığında müstəsna yer tutur. Ədəbiyyat tarixində də daha çox satirik şair kimi tanınır.

Sabirin satiraları müxtəlif aspektlərdən tədqiq olunur və hər bir yeni tədqiqat satiranın əhatə etdiyi geniş məzmunun bir tərəfini aydınlaşdırır. Yaradıcılıq zəngin olduğu üçün tədqiqatlar mövzunun aktuallığını azaltmır, əksinə daha da artırır. Çünki, hər bir tədqiqat bu zəngin ədəbi irsin ifadə etdiyi mövzu və problemləri yeni bir baxış bucağından araşdırır. Belə aktual istiqamətlərdən biri də Sabir satiralarının xalq gülüşü ilə əlaqəli öyrənilməsidir. Bu mövzu da çox geniş əhatə dairəsinə malikdir. Çünki Sabir satiraları özünün səciyyəvi gülüş üslubu ilə yanaşı xalq gülüşünün çeşidli çalarlarını özündə birləşdirib. Sabirin ən çox bəhs olunan gülüşü də xalq gülüşü ilə birbaşa bağlıdır.

## 1. Sabirin ədəbi fəaliyyət dövrü və ictimai şərait

Sabir şeir yaradıcılığına gənc yaşlarından başlasa da, onun bir şair kimi tanınması və populyarlaşması XX əsrin əvvəllərinə təsadüf edir. Bu dövr kifayət qədər mürəkkəb və çətin bir dövr kimi xarakterizə olunur. Bilirik ki, hələ XIX əsrin əvvəllərindən başlayaraq, Rusiya imperiyası Qafqazı işğal siyasətini həyata keçirir. Bu işğal Cənubi Qafqazı da əhatə edir. Nəticədə Azərbaycanın bir hissəsi Rusiya imperiyasının əsarəti altına düşür. Sabirin həyatı yaşadığı ölkənin bu müstəmləkə şəraitində olduğu dövrə düşür. XIX əsrin sonlarına doğru Azərbaycanda maarifçilik hərəkatı formalaşır. XX əsrin əvvəllərində artıq maarifçi bir cərəyan yetişir. Rusiya imperiyasının içində baş verən ziddiyyətlər onu tənəzzülə doğru aparır və nəticədə Rusiyanı kütləvi etiraz dalğaları bürüyür. Müxtəlif mətbuat orqanlarının fəaliyyətə başlaması ilə maarifçilik hərəkatı güclənir və müstəmləkə şəraitində yaşamağa məcbur olan xalqların həyatında da bir milli oyanış baş verir. Azərbaycan ziyalıları, ədibləri maarifçi hərəkatın önündə gediblər. Sabirin yaradıcılığının əsas hissəsi də 1903-1911-ci illəri əhatə etməklə həmin mürəkkəb dövrün bədii refleksi kimi

* *filologiya üzrə fəlsəfə doktoru, Nizami Gəncəvi adına Milli Azərbaycan Ədəbiyyatı Muzeyi Xaqani Şirvani adına Aran regional filialı*
*e-mail:* yaqut.bahadur@gmail.com
**https://doi.org/10.30546/25194011.2024.13.5.0170**

meydana gəlir. Sabirin Mirzə Cəlillə dostluğu, "Molla Nəsrəddin" jurnalının fəaliyyətə başlaması ilə eyni adlı ədəbi məktəbin formalaşması Sabirin satira istedadının və xalq gülüşünün Sabir yaradıcılığı vasitəsilə ifadə olunmasına şərait yaradır.

**2. Sabirin satira yaradıcılığı ədəbiyyatşünaslıq kontekstində**

Hələ Sovet dövründə, 1980-ci illərdə mərhum müəllimimiz Abbas Zamanov şairin yaradıcılığına həsr etdiyi kitabını "Sabir gülür" adlandırmışdı (8;5). Şairin ədəbi irsini və yaşadığı dövrün gerçəkliklərini dərindən bilən tədqiqatçı Sabiri yaradıcılığının əsas xarakterik xüsusiyyətini səciyyələndirən gülüşü ilə təqdim edirdi. Bundan sonra Sabirin yaradıcılığı haqqında Ə.Cəfərzadənin "Sabir", M.İbrahimovun "Böyük Azərbaycan şairi Sabir", M.Arif "Sabir və Şərq xalqlarının milli azadlıq hərəkatı", T.Hacıyev "Sabir: qaynaqlar və sələflər", M.Cəfər "Vətənpərvər şair", Ə.Mirəhmədov "Sabir", M.Məmmədov "Sabir və mətbuat", S. Mümtaz "Sabir haqqında xatirələr", A.Səhhət "Sabirin tərcümeyi-halı" və b. əsərlər yazılıb. Şairin 100 illiyi ilə bağlı nəşr edilmiş "Müasirləri Sabir haqqında" adlı kitab nəşr olunub. İstedadlı ədəbiyyatşünas Alxan Bayramoğlunu Sabir haqqında silsilə tədqiqatlar yazıb və Sabirşünaslığa böyük töhfələr verib (3).

Sabir 49 il ömür sürüb və erkən yaşlarından etibarən şeir yaradıcılığı ilə məşğul olub. Şairin yaradıcılığı XX əsrin əvvəllərində yaranan ictima-siyasi abu-hava şəraitində aktuallığını və ictimai məzmunu daha da genişləndirib. Yaranan şərait, yeni əsr dünyada bir tərəqqi əsri kimi gəlirdir. Şair bu yeni yaranan şəraiti öz həssas qəlbi ilə hər kəsdən öncə hiss edirdi.

"Şərqi-Rus" qəzeti və "Molla Nəsrəddin" jurnalı ilə əlaqə Sabiri qısa müddət ərzində ölkədə və ondan kənarda tanıdır. Mürgüləyən Şərq və İslam dünyası böyük bir şairin gəlişi ilə yenidən silkələnməyə və oyanmağa başlayır. Sabir kəskin satiralar yazırdı və mövcud cəmiyyətin bütün naqisliklərini sərt şəkildə tənqid edirdi. Amma bu tənqidin özünəməxsus xüsusiyyətləri var idi. Əsas səciyyəsi ondan ibarət idi ki, Sabirin satiralarının məzmundakı istehza və yumoru xalq gülüşü təşkil edirdi.

Sabir, xüsusilə "Molla Nəsrəddin" jurnalında məşhurlaşdı və jurnalın üslubunu müəyyənləşdirən əsas müəlliflərdən birinə çevrildi.

Dövr elə idi ki, satira yazmağın təhlükəli tərəfləri vardı. Buna görə də yazarlar çox zaman gizli imzalarla yazardı. Bu vəziyyət Sabirə də aid idi. Çünki Sabirin tənqid hədəfləri içərisində cəmiyyətin bütün qruplarından olan tiplər var idi.

Ədəbiyyat tarixi tədqiqatçıları (4) Sabirin gizli imzalarını müəyyən ediblər: Hop-hop, Ağlar-güləyən, Çuvalduz, Nizədar, Əbunəsr, Şeybani, Qoca əmi, Boynu yoğun, Din dirəyi, Fazil, Tükəzban cici, Savdayi.

Görkəmli ədəbiyyatşünas alim Yaşar Qarayev Sabirin satiralarını izah edərək yazırdı: Sabirlə yaranan yeni mənfi qəhrəman-müsbətin də öz funksiyasını öz bədii məzmunu, "ikinci planı" mətnaltı mənası ilə ifadə və icra edən ifşaçı surət, ifşa edilənlə edənin vəhdəti, özü də bilmədən öz mənəvi müflisliyini. Tarixi aqibətini aləmə car çəkən qəribə personaj! Əslində yeniliyin qüvvətli atributu kimi meydana çıxan komik köhnəliyin təzahürü! Sabirin ən səciyyəvi qəhrəman tiplərindən olan bu surət-orijinal milli satira tipidir, xalis milli bədii təfəkkür məhsuludur və onun bu dərəcədə canlı tipoloji variantları da Sabirdən əvvəlki ədəbiyyatda yoxdur" (2, s. 355).

Ədəbiyyat tariximizdə Seyid Əzim Şirvaninin də satirik əsərlərinin olduğu məlumdur. Seyid Əzim daha çox maarifçi realist şair idi və daha çox da cəhaləti və savadsızlığı tənqid edirdi. Sabirin satirası isə tənqidi realist satira olmaqla cəmiyyətin bütün sferalarını əhatə edirdi. Sabirin yazı kriteriyası "əyriniəyri", "düzühəmvar" yazmaq idi. Gördüyü hər şeyi bədiiləşdirərək yazırdı və bu zaman xalqın yaradıcılıq ehtiyatları bu satiraların məzmununa cəlb edilirdi.

"Sabir son dərəcə milli və xəlqi şairdir, hətta o dərəcədə ki, Qafqazda və bəlkə də

bütün Yaxın və orta Asiyada ilk "Beynəlmiləl"in, ilk Şərq internasionalının müəllifi odur" (2, s. 356). Burada məsələ təkcə Sabirin yenilikçi meylləri həssaslıqla duyması deyil, bu tərəqqi dövrünün başlanğıcına xalqı cəlb etmək, onu yenilikləri qarşılamağa hazır bir vəziyyətə gətirmək üçün çalışmaqdan ibarət idi.

### 3. İctimai problemlərin özünütənqid üslubu və xalq gülüşü

Sabir milli oyanışa və milli tərəqqiyə tənqid və gülüşlə birlikdə çağırış edirdi. Sabirin yaradıcılıq üslubu və öz oxucusuna müraciət metodu fərqli idi. Amma bu fərqin əsası elə xalqın yaratdığı ənənəvi mədəniyyətdən, xalq üslubundan, xalq düşüncəsindən və xalq gülüşündən götürülürdü.

"Ümumiyyətlə, Sabir bədii sisteminin mahiyyəti və strukturu o qədər büllur və aydındır ki, millilik və bəşərilik, qloballıq və konkretlik burada elə bir üzvi vəhdətdədir ki, bu şeir heç bir zaman və məkan məhdudluğu tanımayıb" (2, s. 357). Azərbaycan tarixi-mədəni coğrafiyası, türk dünyası bu satiradan ciddi şəkildə təsirlənirdi. Qohum xalqların ədəbiyyatında da Sabir öz təsirlərini göstərir və diqqəti yenilənən dünyada mürgüləyən müsəlman xalqlara yönəldirdi. Elmin və təhsilin əhəmiyyəti, cəhalət və savadsızlığın millətə vurduğu zərər, xalq və onu idarə edənlər arasında yaranan boşluq, haqq və ədalətin tapdanması, nadanlıq və biganəlik satiralarda öz bədii ifadəsini tapırdı.

Sabirin gülüşünə mənəvi kimlik kontekstində baxdığımız zaman iki məsələni diqqətdə saxlamalıyıq: dövrün müstəmləkə müsibətini və şairin özünütənqid üslubunu. Bunlar nəzərə alınmazsa şairin yaradıcılığını obyektiv bir şəkildə təhlil etmək olmaz.

Sabir kimə gülür, nəyə gülür, niyə gülür, necə gülür suallarının cavabı da yuxarıdakı iki əsas məsələ çərçivəsində aydınlaşdırılmalıdır.

Sabirin həyatına və yaradıcılığına XIX əsrin ikinci yarısı-XX əsrin əvvəllərindən ölkəmizin üzləşdiyi müstəmləkə müsibətindən, mədəni institutların və mənəvi dəyər konseptlərinin zədələndiyi tarixi situasiyadan, milli-mənəvi təkamülün əsasını formalaşdıran maarifçilik hərəkatından, cəhalətdən və təhsildən, mövhumatdan və dindən, ədəbiyyatdan, sənətdən, jurnaldan, qəzetdən, "Molla Nəsrəddin"dən baxmaq olar. Eyni zamanda, bütün bu gerçəkliklərə Sabirin satiralarındakı çoxçalarlı gülüşdən və qəlbən tökdüyü göz yaşlarından baxmaq olar.

Nehrə kimi çalxalanaraq ayranı ayranlıq edən, yağı yağ üstə gətirən zamanın sınağından təkcə sağ deyil, eyni zamanda üzüağ çıxmaq üçün verilən böyük milli-mənəvi mübarizənin içində Sabir zəngin yaradıcılığı ilə dəryadakı qocaman bir dağ kimi öz möhtəşəmliyini qoruyur. Cəmiyyətin içindəki problemləri şair aydın şəkildə görürdü və onları xalq gülüşünün istehza hədəfinə çevirirdi. Dünya inkişaf edərkən müsəlman xalqlarının hələ də milli oyanışdan kənarda qalmasını "lay-lay"la gülüşə çevirirdi. "Lay-lay, bala, lay-lay, yat qal dala, lay-lay"- deyirdi (5).

Şairin yaradıcılığını dövr, zaman, inkişaf və tənəzzül baxımından təhlil edən yazıçı Anar "Dindirir əsr bizi" adlı məqaləsindən bəhs edib (1, s.16).

Bu nümunədə "Biz hələ avtomobil minməyiriz"-deyən şairin sözləri texniki inkişaf baxımından öz aktuallığını azaldıb. Anar haqlı olaraq qeyd edir ki, mənəvi inkişafla texniki inkişaf həmişə üst-üstə düşmür (1, s.16). Çünki indi Azərbaycanda yüksək texniki inkişaf vardır. Vaxtilə şair müsəlmanların dünyanın inkişafından geri qaldığını tənqidi dillə ifadə edib və xalqı qəflət yuxusundan oyanmağa çağırıb. Cəmiyyətin mənəvi inkişafındakı məsələlər isə bu gün də öz aktuallığını saxlayır. Texniki tərəqqi sürətlə baş verə bilir, mənəvi tərəqqi üçün isə uzun zaman davamlı inkişaf lazım olur.

Geri qalmış müsəlman cəmiyyətinin cəhalət dolu reallığı şairi qorxudurdu:

*"Harada müsəlman görürəm qorxuram"*-deyirdi şair. Həmin dövrdə müsəlman artıq böyük bir qəflət və ciddi bir cəhalət içində idi.

Cəhalətdən çıxmağın yolu təhsildir, amma xalqın təhsilə münasibəti də çox acınacaqlı səviyyədədir. Xalq hələ övladlarının gələcəyini təhsildə görmür və "Oxutmuram, əl çəkin"-deyir. Sabirin gülüş dolu satiralarından görünən reallıq belədir.

Sabirin gülüş hədəfindəki mənfi qəhrəman tipləri xalqı düşünməyən, millətin taleyinə biganə olan insanlardır. Bunlar elə tiplərdir ki, "öz qövmümüzün başına əngəl kələfdirlər" və bu tiplər "Millət necə tarac olur-olsun, nə işim var" düşüncəsi ilə xalqa baxırlar. Xalqın düşdüyü acınacaqlı sosial vəziyyət, çətinlik içərisində olan insanlara münasibət belə ifadə olunur: "Lağ-lağ danışıb başlama fəryadə, əkinçi". İnsanların şikayəti eşidilmir, onların problemləri həll olunmur. Sabir belə bir cəmiyyətin içərisində yaşayıb və ətrafındakı bu neqativ reallığı satiralarının mövzusu edib. Xalqı özünün dərdlərinə gülə-gülə baxmağa və nəticə çıxarmağa çağırıb.

Kapitalizmin soyğunçu mərhələsinin yaşandığı reallıqda pulun insan həyatındakı rolu Sabirin satiralarında öz bədii təcəssümünü xalq gülüşü ilə tapır. Kapitalist cəmiyyətinin nümayəndəsi pula bütün varlığı ilə bağlı olduğunu göstərir: "Canımmısan, ya çeşmigiryanımmısan, ey pul", - deyir. Bu reallıq şairə "Adəmi adam eyləyən parədir, parəsiz insanın üzü qarədir", - deyirdi. Başqa bir satirasında isə yenə də kapitalist reallığını komik şəkildə təsvir edir:

*Tanrı hər yerdə pulu bir ürəyi səxtə verər,*
*Mərifət müftədi çün, kasibi bədbəxtə verər* (4).

Buradan anlaşılır ki, şair xalqın yoxsul vəziyyətini və onun mənəvi zənginliyini bilir. Mal-mülk zənginliyi ilə mənəvi zənginliyi birləşdirə bilməyən dövrün mövcud quruluşunu satiranın hədəfinə çevirir.

Satiraların məzmunundakı gülüş elementləri ilə yanaşı onların birbaşa xalq yaradıcılığından qaynaqlandığını göstərən nümunələrlə də rastlaşırıq. Məsələn, "Küpəgirən qarının qızlara nəsihəti" ("Qarı nənənin sözlərin sanma cərəndir") (5, s.73), "Tomeyi-nəhar" ("Çığırma, yat, ay ac toyuq, yuxunda çoxca darı gör") (5, s. 93) və başqa bu kimi nümunələrdə şair xalq yaradıcılığının imkanlarından geniş şəkildə istifadə edir. Belə istifadə bir tərəfdən şairin satiralarını xalq yaradıcılığı ilə daha sıx bağlayır, digər tərəfdən isə xalq gülüşünü gücləndirir. Şair hər kəsi öz dili ilə, öz xarakteri ilə təqdim edir. Belə təqdimatda obraz aydınlaşır və onun cəmiyyətdəki mövqeyi, mədəni kimliyi məlum olur. İctimai problemlərin cəmiyyətin özündən qaynaqlanan əsaslarını Sabir xalq gülüşü ilə təqdim edir. Adını səbr etməkdən almış şair gülüşlə, dərin bir istehza ilə xalqı səbrli olmağa çağırır:

*"Bəlayi fəqrə düşdün, razı ol, biçarə, səbr eylə"- deyir* (5, s. 276). Bu sabirin özünəməxsus özünütənqid üslubudur.

**4. Sabir gülüşünün səciyyəsi və vəzifəsi**

Mirzə Ələkbər Sabirin satira yaradıcılığından nəşr olunub dövrümüzə qədər gələn nümunələr zərində müşahidədən aydın olur ki, şairin gülüşü tərkibinə görə zəngin bir gülüşdür. Ədəbi baxımdan bu gülüşü satira adlandırmaq məsələnin ümumi səciyyəsini müəyyənləşdirmək deməkdir. Gülüş geniş bir mövzudur, çoxlu növlər və çalarları mövcuddur. Sabirin gülüşündə də sadə bir gülüşdən və yumordan bəhs etmək məsələyə məhdud çərçivədən yanaşmaq olardı. Ona görə də, Sabir gülüşünü dövrün reallıqları kontekstində götürməklə təhlil etmək və maarifçi hərəkatın yeni istiqamətinə uyğun yanaşmaq lazımdır. Dövrün mövcud ədəbi cərəyanı tənqidi realizmdir. Tənqidi realist baxış dövrün ədəbi yaradıcılığında müəyyənləşdirici istiqamət kimi görünür. Maarifçilik təhsil və məktəblə yanaşı mətbuatın rolunu da aktual problemə çevrilir. Dövrün şairləri üzərlərinə düşən milli vəzifəni dərindən dərk edərək xalqı qəflət yuxusundan oyandırmaq üçün bütün yaradıcılıq imkanlarını səfərbər ediblər. Mirzə Cəlil və Sabir bu yolda əsas rol oynayıb

və yazılarının çoxunun nəşr olunduğu "Molla Nəsrəddin" jurnalının adı ilə eyni adlı ədəbi məktəb və ədəbi üslub yaradıblar. Molla Nəsrəddin bir müdrik qocadır və lətifə qəhrəmanıdır. Onun adından söylənən lətifələrin yaratdığı gülüş hazırcavablıq, müdriklik və səfehlik elementlərini özündə birləşdirir. Çətini asana, mürəkkəbi sadəyə çevirən xalq müdrikliyi Molla Nəsrəddinin gülüşünün əsas səciyyəsini təşkil edir. Sabirin satiraları da bu tip gülüşün davamı və onun yeni bir növü kimi meydana çıxır. Özünütənqid və "tərsinəlik" metodu daha effektiv bir gülüş növü kimi seçilir. Müdrik xalq qəhrəmanında olduğu kimi özünü səfeh yerinə qoyan lətifə personajında olduğu kimi, Sabir satiralarında da personajlar bənzər rolu yerinə yetirirlər. Burada məqsəd xalqı öz eyiblərinə, ictimai problemlərə güldürərək düşündürmək, milləti oyandırmaqdır. Amma səbirlə aparılan mübarizə də öz nəticələrini zaman keçdikcə verir. Çünki hadisələrə müdrik yanaşmaq, problemləri müəyyənləşdirmək, onların həllinin vacib tərəfidir. Sabir bu gün də, cəmiyyətin mənəvi həyatında iştirak edir və gülüşü ilə hədəfləri müəyyənləşdirir. Azərbaycan ədəbiyyatı tarixində özünəməxsus yeri olan Mirzə Ələkbər Sabir satira yaradıcılığı ilə yeni üslub yaradıb. Bu üslubda iştirak edən ən mənalı element xalq yaradıcılığından qaynaqlanan gülüşdür. Sabir xalqı güldürüb, güldürə-güldürə ağladıb, ağladaraq düşündürüb. Cəmiyyətin mənəvi problemlərini özünəməxsus şəkildə satiralarına mövzu edib və onları xalqın diqqətinə çatdırıb. Sabirin satiraları öz dövründə də, müasir dövrdə də xalqın ictimai fikir tarixi və tənqidi realist düşüncənin ifadəsi baxımından əhəmiyyətini qoruyur.

**Nəticə**

Sabirin satiralarında cəmiyyətin bütün qüsurları aydın şəkildə görünür və onlar "özünütənqid" üslubu ilə gülüş obyektinə çevrilir. Məsələnin gülüşlə verilməsi cəmiyyətdəki problemlərin həlli üçün nikbin bir baxış yaradır. Problemlərə və qüsurlara gülən insan onları həll etməyə də qadirdir. Sabirin satiralarında dərin bir nikbinlik duyğusu da vardır və bu duyğu xalqdan, onun mənəvi dəyərlərindən və gülüşündən qaynaqlanır.

## ƏDƏBİYYAT


1. Anar. "Dindirir əsr bizi" // 525-ci qəzet, 2012, 26 may, s.16-17.
2. Qarayev Y. Azərbaycan ədəbiyyatı: XIX və XX yüzillər. Bakı: Elm, 2002, 740 s.
3. MəmmədovA. Şamaxıda maarif və maarifçilik (XIX əsrin ortalarından mart 1918-ci ilə qədərki ədəbi mühit). Bakı: Maarif, 1997, 240 s.
4. Mir Cəlal, Hüseynov, F. XX əsr Azərbaycan ədəbiyyatı. Bakı: Maarif, 1982, 427 s.
5. Sabir M.Ə. Hophopnamə. İki cilddə. I cild, Bakı: Şərq-Qərb, 2004, 480 s.
6. Sabir M.Ə. Hophopnamə. Bakı: Çaşıoğlu, 2004, 528 s.
7. Zamanov A. Müasirləri Sabir haqqında. Bakı: Azərbaycan Uşaq və Gənclər Ədəbiyyatı Nəşriyyatı, 1962, 323 s.
8. Zamanov A. Sabir gülür. Bakı: Gənclik, 1981, 260 s.



***Резюме***

Ягут Ашрафова

***Сатира Сабира и народный смех***

В статье в контексте народного смеха рассматриваются сатиры Мирзы Алекпера Сабира, видного представителя азербайджанской литературы начала XX века. Творчество поэта прежде всего взято в контексте действительности его времени. Изучено просветительское движение, зародившееся в Азербайджане в конце XIX-начале XX веков, его связь с литературой, предмет погружен в контекст просветительской деятельности литераторов. Отсюда ясно, что Сабир – один из ведущих фигур просвещенного движения начала XX века. Его отношения с Мирзой Джалилем и дружба с другими писателями того времени оставили глубокий след в творчестве поэта. Самый продуктивный

период его творчество совпало первым десятилетием XX века, и большую роль в литературном творчестве поэта сыграл журнал «Молла Насреддин», который начал выходить с 1906 года. Сабир, опубликованный в этом журнале за короткий период времени, стал любимым и прочитанным большим количеством читателей. Кроме того, поэт известен во многих странах Востока и его творчество оказало влияние на писателей этих стран. Личность и наследие Сабира были предметом многочисленных исследований азербайджанского литературоведения. Джафар Хандан, Аббас Заманов, Мир Джалал, Фиридун Гусейнов, Яшар Гараев и десятки видных литературных критиков высоко оценили литературное наследие поэта и посвятили ему свои произведения.Самая актуальная тема в сатирах Сабира – смех и его виды. Здесь народный смех в сатирах поэта рассматривается как источник и уточняются его характеристики. Для этого сатиры Сабира были проанализированы с точки зрения комических особенностей их содержания. Стало ясно, что источником смеха в сатирах Сабира является смех народа. Использование элементов народного смеха в сатире способствовало лучшем способом воздействия. Стиль Сабира – самокритика. В этом смехе персонаж критикует себя и показывает социальное уродство. Характерные черты сатирического смеха поясняются на примерах из произведений поэта.

**Ключевые слова:** *Азербайджан, литература, Сабир, сатира, смех.*

***Summary***

***YagutAshrafova***

***Sabir's Satire and Popular Laughter***

The article examines the satires of Mirza Alakbar Sabir, a prominent representative of Azerbaijani literature of the early 20th century, in the context of popular laughter. The poet's work is primarily taken in the context of the reality of his time. The educational movement that emerged in Azerbaijan in the late 19th - early 20th centuries, its connection with literature are studied, the subject is immersed in the context of the educational activities of writers. From this it is clear that Sabir is one of the leading figures of the educational movement of the early 20th century. His relationship with Mirza Jalil and friendship with other writers of that time left a deep mark on the poet's work. The most productive period of his work coincided with the first decade of the 20th century, and the magazine "Molla Nasreddin", which began to be published in 1906, played a major role in the poet's literary work. Sabir, published in this magazine in a short period of time, became a favorite and read by a large number of readers. In addition, the poet is known in many Eastern countries and his work influenced the writers of these countries. Sabir's personality and legacy have been the subject of numerous studies in Azerbaijani literary criticism. Jafar Khandan, Abbas Zamanov, Mir Jalal, Firidun Huseynov, Yashar Garayev and dozens of prominent literary critics highly appreciated the poet's literary legacy and devoted their studies to the work. The most relevant topic in Sabir's satires is laughter and its types. Here, folk laughter in the poet's satires is considered as a source and its characteristics are specified. For this, Sabir's satires were analyzed from the point of view of the comic features of their content. It became clear that the source of laughter in Sabir's satires is people's laughter. The use of elements of folk laughter in satire contributed to a better understanding and love of his satire among the people. Sabir's style is self-criticism. In this laughter, the character criticizes himself and shows social ugliness. The characteristic features of satirical laughter are explained with examples from the poet's works.

**Keywords:** *Azerbaijan, literature, Sabir, satire, laughter*.

Redaksiya heyətinin üzvü fil.e.d., prof. Rzayev Seyfəddin Gülverdi oğlunun rəyi əsasında çapa məsləhət görülmüşdür.